Səs.- 2019.- 6 noyabr.- S.16.






# Binəqədi rayonunda "Nəsimi dühası-650 il" adlı layihəyə çərçivəsində növbəti tədbir baş tutub

Binəqədi rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı və Binəqədi rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ilin "Nəsimi İli" elan olunması və dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi ilə əlaqədar "Nəsimi dühası-650 il" adlı layihə çərçivəsində növbəti tədbir baş tutub. Təsdiq edilmiş qrafikə uyğun olaraq, layihədə 306 nömrəli tam orta məktəbin akt zalında tədbir keçirilib. Tədbir 306 nömrəli tam orta məktəblərin şagirdlərinin ifasında Nəsimiyə həsr edilmiş tamaşa ilə açıq elan edildi, daha sonra şagirdlər müxtəlif qəzəllər ifa edilb, musiqilər səsləndirdilər. Şagirdlərin iştirakı ilə "Nəsimi 650" adlı fləşmobdan ibarət videoçarx nümayiş edilib. Çıxış edən 306 nömrəli tam orta məktəbin direktoru Gültəkin Ədilova Azərbaycan şairi və mütəfəkkiri, Azərbaycan dilini ədəbi-bədii dil səviyyəsinə yüksəldən böyük ustad İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar "Nəsimi İli" elan edilməsi şairə verilən dəyərin, hörmət və ehtiramın ən yüksək göstəricisi olduğunu bildirib. Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov İmadəddin Nəsimi irsinin öyrənilməsi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımların, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən atıldığını bildirib. R.Göyüşov Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edildiyini və 1973-cü ildə beynəlxalq səviyyədə qeyd olunduğundan bəhs edib. Natiq Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirdiyini qeyd edib. Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

***ZÜMRÜD BAYRAMOVA***